# Bəxtiyar Vahabzadənin poeziyasında kamil şəxsiyyət problemi

İnsan - dünyanın xaricində yaşayan varlıq deyil... "İnsan - İnsan dünyasıdır, dövlətdir, cəmiyyətdir" - bu, fikir dahi K.Marksa aiddir, bu gün də dəyərini itir-məmişdir. Qalır insanın ailədə və cəmiyyətdə tərbiyəsinə. Şəxsiyyətin yetişməsin-də əsas amil münasibətlərin qurulmasıdır: mənəvi zənginlik, sərvətlərin maddiləş-məsi və düşüncələrin emosionallığı və sairin öz yerini tutmasıdır.



**Allahverdi Eminov**

*(Əvvəli ötən saylarımızda)*

Pedaqogikada belə bir fikir mövcuddur ki, insanların yaxşı cəhətlərini gör-mək çətindir, o, hələ Şahnazı bu mənada tanımamışdır, onun toy məsələsində tək-lifini yerə salmaqda hirslənir və məclisi tək gedir.

B.Vahabzadə qəhrəmanının yaxşı cəhətlərini izləyir, musiqi qabiliyyətini al-qışlayır. Eləcə də Əmirxana S.Vurğunun simpatiyası olduğu qədərincə B.Vahab-zadə təsadüfən yazmamışdır: "Əmirxanın yenidənqurma prosesində ictimai həyat amillərinin təsirini daha aydın, daha canlı göstərmək lazımdır". Hatəm toyda şairə Gülpərinin səsinə heyran kəsilir və elə zənn edir ki, onunla evlənsə xoşbəxt olar, sözlərinə mahnı da bəstələyər. Belə məqamlarda o, özünü bədbəxt hesab etmir, bu-na onun mənəvi haqqı da çatmır, ona görə ki, bəstəkardır, istedadlıdır, Gülpəri ilə tanış olmuşdur. Lakin bir sualın cavabına şair tələsmişdir: Şahnaz toya Hatəmlə gəlsə idi vəziyyət dəyişərdimi?

B.Vahabzadə təbiətən musiqilə necə deyərlər "yatıb - duran" insandır. "Mu-ğam" poemasını təsadüfən yazmamışdır: Poemada xüsusən, milli musiqimizə gözəl şeirlər həsr etmişdir:

***Zurna haray salır, coşur nağara,***
***Gah "Koroğlu" çalır,***
***gah "Tərəkəmə".***
***Sən ey cavan oğlan, bu havalara***
***"Köhnəlibdir", - deyə, gəl,***
***dodaq büzmə!***
***Bir anlıq səbr elə, qulaq as ona,***
***Bir bax, nağaranın guppultusuna!***
***O, düşmən üstünə gedən qəhrəman***
***Bizim babaların addım səsidir.***
***O coşğun "Cəngi"lər əllərdə yanan***
***Misri qılınc səsi, el nərəsidir. -***

hayqıran şair Qərb musiqisinə də hörmətlə yanaşır.

**Motsartı, Şuberti, Şopeni**
**Səndən az duymaram,**
**az sevmirəm mən.**
**Ancaq heç bir qüvvə ayırmaz məni**
**Üzeyirin şirin nağmələrindən...**

Hatəm Şahnazsız - belə demək mümkünsə - Gülpəriyə min könüldən vu-rulur. O, hey iş otağına çəkilir, nəğmələr çiçək açır onun dodaqlarında. Hey çalır, oxuyur. Bəs Şahnaz nə düşünür, hansı hissləri keçirir? Onu tamam başqa şeylər məşğul edir: Qəzetlərdə boşanan, ölən, təzə filmlər çıxan informasiyaları izləyir.

**Nə üzündə qayğı var,**
**Nə qəlbində həyəcan.**
**Onun zəhləsi gedir**
**Kədərli mahnılardan.**

Şahnaz bu cür tərbiyə almışdır. Evdə tək qalanda bir mahnı belə, oxuma-mışdır.

**Qəlbində gizlənməmiş**
**Nə bir arzu, nə bir sirr.**
**Onun məhəbəti də**
**Nifrəti də bilinmir.**

Hatəm sanki tənhalaşmışdır, Gülpərinin şeiri üzərində "yanıqlı romans" yazmaqdadır. Hatəm ilhamla yazdığını çalmaq istər, yeganə dinləyicisi Şahnaz ola bilər və bu sevincli duyğu ilə Şahnazı oyatmaq istərsə, heyif. Şahnaz bu məqam-larda sanki müqəvvadır. "Qoy yataq, - pıçıldayır. - gecdir". Hatəm sözlərinin peşi-mançılığını çəkir. Yeganə anası oğluna qulaq asır, fərəhlənir.

**Baxdı, baxdı oğluna**
**Şirmayi dillər üstə**
**uçan barmaqlarına.**
**Asta-asta oxudu,**
**Hatəm oxudu yenə**
**Sözlər bir mizrab kimi**
**Toxundu ananın da**
**Qəlbinin tellərinə...**

Şahnaza anbaan dəyişmək xasiyyəti yad deyil, gah Hatəmə yovuşur, gah onu xoş gəlmələrlə danışdırır, gah da qəlbi buza dönür. Hatəmsə bu günlərdə, saatlarda Gülpərini düşünür, onun qəlbini ovlayan bu qızla evlənməyə dəyərmi? Yenə tərəd-düdlər, tərəddüdlər, Şahnaza qarşı küskünlük. Hatəm də adekvat olaraq Şahnaz ba-rədə qərarını təsdiqləyir ürəyində.

**Hatəm də ürəyində**
**fikirləşdi: "Düz dedin.**
**Sən Nərgizə qızılgül,**
**gecəyə gündüz dedin.**
**Mənlə yaşadınsa da**
**ürəyimə yad oldun.**
**Sən mənə sirdaş deyil,**
**sadəcə arvad oldun!"**

Poemada Hatəm, necə deyərlər, dəymədüşər xarakterdə təsvir edilmişdir. Yuxarıdakı qənaətə gələrək peşimanlayır da: "Mənim pak ürəyim var, qoy o ləkə-lənməsin".

**Qorxuram ağlım çaşa,**
**ehtirasa baş əyəm,**
**Qorxuram iradəmə**
**sahib ola bilmərəm". -**

Tərəddüd edirsə, "evdə haraylar yüksələndə" Gülpərini unutmur:

**Durardı göz önündə**
**heykəli Gülpərinin.**
**Sızlardı ürəyində**
**bir inilti, birinin.**

Hatəmin poemada effermerliyi - əxlaqi tərbiyəliliyə ər və arvad arasındakı fərqli dünyagörüşü şərtləndirən bir amil kimi nəzərə almalıyıq. Çünki ər-arvad münasibətlərində daxili istəklərin və motivlərin formalaşması səviyyəsidir. Hatə-min bir insan kimi formalaşmasının mühüm meyarı davranışındakı sərbəstliyidir və burada iki cəhəti nəzərə almalıyıq: birincisi, onun əxlaqi səbatlılığıdır, xırda hisslər-dən uzaqlaşa bilməməsidir (Gülpəriyə dərhal uymasıdır), ikincisi, Şahnaza olan "yeni münasibətin oyanmasıdır". Şahnazı isə ana olmaqla ərinə qayğılı olmaq hissi maraqlandırır və bu, onun şəxsi iztirablarına son qoyur. Hatəm kamilləşməyə doğ-ru gedir. O, Gülpərinin görüşünə tələsir, lakin qarşıda arvadı və onun qız öv-ladı dayanır, dediyi "Xəstəyəm" yalanın iztirabını yaşayır.

Digər haşiyə: B.Vahabzadə poemada analıq qüdsiyyətini qiymətləndirmə-sidir. Əsərin ən dərin hissiyyatı oyadan yeridir.

**Duyğular dəyişdi... Uşaq olandan**
**Şahnazın yuxusu ərşə çəkildi.**
**Körpənin mənasız qığıltısını**
**Dünyanın ən dərin mənası bildi.**
**Körpə ağlayanda onun səsindən**
**Şahnaz vəcdə gəlir, tez kövrəlirdi.**
**Körpənin saçından, gül nəfəsindən**
**Ona qızılgülün ətri gəlirdi..**

Uşağın ailədə doğuluşu xoş və gözlənilən möcüzədir, ən kəskin konfliktləri buz kimi əridir. Şahnaz gənc ərini anlamasa da, körpəsindən sonra tamam dəyişir, özü də inandırıcı situasiyalarda.

**Başqa duyğular ilə**
**Şahnaz indi yanırdı.**
**Gün-gündən daha artıq**
**Hatəmə bağlanırdı.**
**Uşağın sifətində**
**həm özünü, həm də ki ,**
**Hatəmi görürdü.**
**Eşqini, sevincini**
**O, qəmini görürdü**
**Sevməyib gəlmişdi o,**
**ərə, həqiqətdi bu,**
**İndi isə o, sevirdi...**

Bəli, məhəbbət hər şeyə qadir anlamdır, o, qranit daşı parçalamağa qadir qüvvədir.

Şahnaz artıq arzusuna qovuşmuşdur, bəlkə də onu düşünmüş ki, Hatəmi sev-sin, onu ata kimi sinəsinə körpəsi kimi sıxsın. Gənc analar həmişə bu xəyalının gerçəkləşməsini istər, gələcək ailə səadətini burda axtarar. Bu məqamda yadıma böyük rus pedaqoqu K.D.Uşinskinin kəlamları düşdü: "İnsanın bütün arzularını yerinə yetirin, ancaq onun həyat məqsədlərini əlindən alın, onda görərsiz ki, o, nə cür bədbəxt və zəif bir məxluqa çevrilir. Həyatda məqsəd insan ləyaqətinin və insan xoşbəxtliyinin ürəyidir". Şahnaz qızı Sədaqətdən sonra özünü tənha, yalnız hiss etmir, daha sonra sevgi çırpıntılarının səsinə cavab verəcəkdir, "Aygün"də olduğu müəllif ricəti kimi. Aygün düşündüyü kimi:

**Yox! Bu ola bilməz!..**
**Aygün bir daha**
**Sözünü çeynəyib qaytarmaz geri...**
**Ümidlə, ümidlə baxım sabaha**
**Mənim ürəyimdir onun son yeri...**
**Mənimdir o meyxoş, o dolğun çiçək.**
**Sevəcək, sevəcək o dilbər məni.**
**Mənimlə bir yerdə dövran sürəcək,**
**Ayırmaq olarmı səsdən nağməni?**

Hatəm körpəsindən sonra peşimanlayır,



*(B.Vahabzadə - 100)*

vicdan əzabı içində sarsılır. Bunu o, bacarır, şair də qəhrəmanının bu halətindən sarsılır:

**Bu qaynar dodaqlar, bir saat əvvəl,**
**Bakir bir yanaqda yanmayırdımı?**
**Qaldım öz içimə özüm məəttəl,**
**Əhdini, eşqini Hatəm qırdımı?**

**Yox, yox! Bu mümkünmü?**
**Mən ki, gülmüşəm**
**Gündə bir budaqda yurd salanlara.**

**Bu, bir həqiqətsə neylədin, Hatəm,**
**Sənin sözün hara, əməlin hara?..**

Hatəm də öz növbəsində sarsıntı keçirir, oxucuya elə gəlir ki, Hatəm atdığı risqli addımı qeyri - ixtiyari atmışdır, Gülpərinin bir öpüşünün "qurbanı" olmuş-dur. Qıza deməyə cəsarət edərmi desin ki, keç təqsirimdən, səni aldatmışam, riya-karam mən. Mənim arvadım da, uşağım da var. Bu ovqatda Hatəm vicdanın səsini eşidir öz timsalında:

**Mənim qızımı da aldadacaqdır?..**
**Onda dözərəmmi?.. Yox, bu çətindir.**
**Burda söz vicdanın, ədalətindir, -**

fikirlər - tərəddüdlər içində çapalayır.

Bəxtiyar Vahabzadənin "İztirabın sonu" poeması insan xarakterinin "gizlin" qatlarını üzə çıxardır, müxtəlif situasiyalarda effemerlik nüanslarına işarələr vurur və eyni zamanda insan hisslərinin müqəddəsliyinə toxunur. İnsan hisslərinə biganə qalmamağı aşılayır. Lakin bu hiss dünyaya göz açan övladın qarşısında sarsıla da bilir. Şairin ötən əsrin 50-ci illərində qələmə aldığı poema üzünü XXI əsrə tutur: övladını çamurluğa tulazlayan, gələcək taleyini düşünməyən, xüsusilə, ataların qeyrətsiz vicdanına işarədir. Övlad naminə xırda konfliktlər üçün ailənin dağılması cəmiyyət qarşısında ən böyük günahdır, intim hisslərin naminə övladları məchul gələcək həyata etibar etmək yaramaz. Unutmayaq ki, Bəxtiyar Vahabzadə poeziya-sında bir pedaqoq olaraq kamil şəxsiyyət tərbiyəsinin bədii həllinə cavab ver-mişdir.

2025